3
2022

İSSN-0207-4710

# GÖYƏRÇİN



# NİKO ADLI AYI BALASI

(İspan xalq nağılı)

Niko adlı ayı balası çox qüssəli idi. O, arı olmaq istəyərdi. Maya adlı arı ayı balasına dedi ki, arı olmaq sənə elə də asan görünməsin. Gərək səhərdən axşama kimi fasiləsiz, yorulmadan, həvəslə işləyəsən.

Bunu eşidən Niko dərhal işləməyə başladı. Baxıb gördü ki, Maya arı yuvasının qapısı ağzında keşik çəkir, bu pətəkdən olmayan heç bir arını içəri buraxmır.

Niko da arıya baxıb öz komasının qapısı ağzında dayanıb keşik çəkməyə başladı.

Maya adlı arının bacıları bütün günü çəməndəki çiçəklərin üstündə uçur, onların şirəsindən bal çəkirdilər. Bunu görən ayı balası da öz çantasını götürüb çəmənə getdi.

Arılar gətirdikləri şirəni bala döndərib şanların üstündəki kiçik bankalara doldururdular. Ayı da onlar kimi çəməndən yolub gətirdiyi çiçəkləri üç bankanın içinə yığdı.

Niko çox yorulmuşdu. Ona görə bütün gecəni daş kimi yatdı. Arılar isə gecə səhərə kimi fasiləsiz işləməklərində idilər.

Niko yuxudan ayıldı. Gördü ki, gətirdiyi çiçəklər solub. Ona görə anladı ki, bal çəkmək ayı işi deyil. O, elə ayılığında qalmalı, fürsət düşən kimi hazır baldan yeyib ləzzət almalıdı.





# OĞLAN VƏ BABASI

(İspan xalq nağılı)

Qədim zamanlarda bir neçə nəslin bir dam altında yaşamasında heç bir qəribəlik, qeyri-adilik yox idi. Adətən adamların hamısı sülh və əmin-amanlıq, mehribançılıq içində yaşayırdılar. Ancaq həyat yoldaşı, oğlu və atası ilə bir evdə yaşayan kişinin evində belə deyildi. Gəlin qoca qayınatasını bəyənmir və daim ondan şikayətlənirdi. Nəhayət, bir gün bu deyingən qadın öz arzusuna çatdı. Onun təkidi ilə qocanı aparıb evdən uzaq bir tövləyə yerləşdirdilər. Tezliklə gözdən iraq qoca tamamilə unuduldu.O, həftələrlə aç-susuz qaldı.

Bir dəfə kiçik nəvəsi babasını görmək üçün onun yanına getdi. Baba nəvəsinə dedi:

-Bala, mən soyuqdan lap donuram. Get bir yorğan gətirib onu üstümə ört.

Oğlan cəld evə qaçdı. Ancaq yorğan tapa bilmədi. Uzun bir döşək tapıb atasına dedi.

-Ata, xahiş edirəm, bu döşəyi iki yerə böl.

Kişi təəccüblə soruşdu:

-Nə üçün? Axı bu sənin nəyinə lazımdı?

-Onun yarısını aparıb babamın üstünə örtəcəm.

-Onda ta niyə iki yerə bölürsən, elə döşəyi bütöv apar.

-Yox, olmaz.

-Axı niyə?

-Bəs babam kimi qocalanda sənin üstünə nə örtəcəm?

Oğlunun cavabı kişiyə çox təsir elədi. O, öz səhvini başa düşdü. Gedib atasını tövlədən evə gətirdi. Hər gün səhərdən axşama kimi onun qulluğunda dayandı.



Tərcümə edəni: R.Y.Əliyev